

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 158 (21.059)

21 avqust 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

2014-cü ildə Azərbaycan maarifçilik hərəkatının və ədəbiyyatının inkişafında böyük xidmətləri olan Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi tamam olur.

1854-cü ildə Ordubad şəhərində anadan olan Məhəmməd Tağı Sidqi ilk təhsilini buradakı mədrəsədə almış, klassik şərq poeziyasını və fəlsəfəsini öyrənmişdir.

Azərbaycanda milli və dünyəvi məktəbin, maarifçilik hərəkatının inkişafına mühüm töhfələr verən, xalq müəllimi kimi böyük şöhrət qazanan Məhəmməd Tağı Sidqi 1892-ci ildə Ordubadda yeni tipli "Əxtər" məktəbi yaratmış, 1894-cü ildə Naxçıvanda "Tərbiyə" məktəbinin əsasını qoymuşdur. Bu məktəblər xalqın maariflənməsində mühüm əhəmiyyət kəsb etmiş, Naxçıvanın bütöv bir ziyalı nəslini yetişdirmişdir.

Elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin müəllifi olan Məhəmməd Tağı Sidqi ədəbi yaradıcılıqla da məşğul olmuş, Azərbaycan uşaq ədəbiyyatının və poeziyasının inkişafında mühüm xidmətlər göstərmiş, maarifçi-realist ədəbiyyatın yaradıcılarından biri kimi ədəbiyyat tarixində öz yerini tutmuşdur. Görkəmli pedaqoqun qələminin məhsulu olan uşaq nəsrinin ilk mükəmməl nümunələri, ədəbi-fəlsəfi traktat, poeziya və tərcümə materialları Azərbaycanda maarifçi ədəbiyyatın inkişafında mühüm rol oynamışdır.

Məhəmməd Tağı Sidqinin Azərbaycan teatrının inkişafında da xidmətləri olmuşdur. Ədəbi-mədəni tədbirlərin əsas təşkilatçılarından olan, həvəskar aktyor dəstəsi yaradan və ona rəhbərlik edən böyük pedaqoq və maarifçi bu yolla milli teatrın imkanlarını xalqın maariflənməsinə, ictimai-mədəni tərəqqiyə cəlb etməyə çalışmışdır.

Xalqın maariflənməsində mətbuatın imkanlarından da faydalanmağa çalışan Məhəmməd Tağı Sidqi dövrünün bir sıra mütərəqqi qəzetləri ilə yaxından əməkdaşlıq etmiş, bu qəzetlər üçün publisistik materiallar hazırlamış, özünün maarifçilik ideyalarını, pedaqoji görüşlərini, xalqımıza xas olan yüksək əxlaqi keyfiyyətləri təbliğ etmişdir.

Məhəmməd Tağı Sidqinin məktəb işinin və maarifçiliyin, eləcə də ədəbiyyatımızın və mədəniyyətimizin inkişafında əvəzsiz xidmətlərini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Məhəmməd Tağı Sidqinin 160 illik yubileyi Naxçıvan Muxtar Respublikasında geniş qeyd edilsin.

2. "Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 20 avqust 2014-cü il*

## Payız-qış mövsümünə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələr müzakirə edilir



*Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində muxtar respublikanın təhsil müəssisələrində payız-qış mövsümünə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilmişdir. Kollegiya iclasında təhsil naziri Piri Nağıyev məruzə ilə çıxış etmişdir.*

Qeyd olunmuşdur ki, 2014-2015-ci tədris ilində muxtar respublikada payız-qış mövsümündə 182 təhsil müəssisəsi müasir istilik sistemi ilə qızdırılacaq.

Payız-qış mövsümündə təhsil müəssisələrinin fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə verilən tapşırıqlara uyğun olaraq, təhsil müəssisələri ağ neft, maye qaz yanacağı və soba ilə təmin olunmuşdur. Verilən mal-material və yanacaq birbaşa mərkəzləşdirilmiş qaydada rayonlar üzrə bölünmüş, onlardan səmərəli istifadə olunması nəzarətə götürülmüş, mal-materialın təyinatı üzrə düzgün istifadə edilməsi, məktəblərdə təhlükəsizlik qaydalarına əməl olunması üçün reydlər keçirilmiş və mövsüm ərzində yanacaq çənləri təhlükəsiz yerlərdə saxlanılmışdır.

Qış aylarının çox sərt və şaxtalı keçməsinə baxmayaraq, muxtar respublikada həyata keçirilən yüksək tədbirlər nəticəsində əvvəlki illərdə olduğu kimi, 2013-2014-cü tədris ilində də ümumtəhsil məktəbləri və digər təhsil müəssisələrində işin ahəngi pozulmamış, bütün tədris prosesi və təlim-tərbiyə işi mütəmadi olaraq həyata keçirilmişdir.

Qeyd olunmuşdur ki, 2014-2015-ci tədris ilində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində 216 ümumtəhsil məktəbi, 44 məktəbdənkənar müəssisə, 2 orta ixtisas məktəbi, 2 peşə liseyi və 3 texniki-peşə məktəbi fəaliyyət göstərəcəkdir. Naxçıvan şəhəri üzrə 32, Şərur rayonu üzrə 44, Ordubad rayonu üzrə 25, Culfa rayonu üzrə 28, Babək rayonu üzrə 30, Şahbuz rayonu üzrə 23, Kəngərli rayonu üzrə 16, Sədərək rayonunda isə 9 təhsil müəssisəsi müasir istilik sistemi ilə qızdırılacaqdır.

Şagird sayının gələcək perspektivləri nəzərə alınaraq həyata keçirilən məktəb tikintiləri müasir istilik sistemlərinə qoşulan təhsil müəssisələrinin sayının daha sürətlə artmasına şərait yaradır. 2014-cü ildə aparılan tikinti-quruculuq işləri nəticəsində muxtar respublikamızda daha 19 təhsil müəssisəsi payız-qış mövsümündə müasir istilik sistemlərinə qoşulacaq, nəticədə, cari tədris ilində rayon (şəhər) təhsil şöbələri də daxil olmaqla, müasir istilik sistemləri ilə işləyən müəssisələrin sayı 207-yə çatacaq. Yeni məktəblərin tikilməsi və müasir istilik sistemlərinə qoşulması birnövbəli məktəblərin də sayının artmasına səbəb olmuşdur. Belə ki, 2014-2015-ci tədris ilində muxtar respublikada fəaliyyət göstərəcək 216 ümumtəhsil məktəbindən 204-ü (94,44 faizi) beşgünlük, 12-si (5,56 faizi) isə 6 günlük iş həftəsi ilə işləyəcək. Bu da, öz növbəsində, tədrisin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsinə şərait yaradacaq.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

*Avqustun 20-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində 5 avqust 2014-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı yığıncaq olmuşdur.*

Tədbiri Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev açaraq bildirmişdir ki, payız-qış mövsümündə cəzaçəkmə müəssisələrinin fasiləsiz istiliklə təmin olunması, məhkumların isti geyim və ərzaqla təminatı diqqətdə saxlanılmalı, zəruri ehtiyat yaradılmalıdır.

"Payız-qış mövsümünə hazırlıqla bağlı artıq neçə ildir, əldə edilən təcrübəmiz əsas verir deyək ki, bu il də qışa hazırlığı vaxtında yerinə yetirək, mövsümü təhlükəsiz, etibarlı şəkildə başa vuraq", – deyən nazir vurğulamışdır ki, bunun üçün nazirliyin balansına daxil olan inzibati binaların qızdırılması üçün istifadəyə verilən qazanxana və kombi sistemləri nəzarətdən keçirilməklə onların sazlığı yoxlanılmalıdır. Təhlükəsizlik tələblərinə riayət edilməli, qazdan və elektrik enerjisindən səmərəli istifadə olunmalıdır.

Sonra məruzə ətrafında Penitensiar Xidmətin mühafizə taborunun komandiri, ədliyyə polkovnik-leytenantı Rəşad Cəlilov, 8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinin rəisi vəzifəsini icra edən ədliyyə polkovnik-leytenantı Möhbalı Tağıyev, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, Penitensiar Xidmətin rəisi, ədliyyə polkovniki Şahin Təhməzov, nazirliyin Təşkilat-nəzarət şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri Emin Səfərov çıxış etmişlər.

* * *

*Culfa Rayon İcra Hakimiyyətində də 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə edilmişdir.*

Tədbiri rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev açaraq məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, Culfa rayonunda 2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıq daim diqqət mərkəzində saxlanılır, payız-qış mövsümünə hazırlıqla bağlı qarşıya qoyulan vəzifələrin icrası məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Bu tədbirlər bütün sahələrdə, eləcə də enerji təminatı sahəsində mütəmadi olaraq davam etdirilir. Rayon mərkəzində və kəndlərdə elektrik naqillərinin standartlara uyğun çəkilməsi, köhnəlmiş elektrik dirəklərinin yeniləri ilə əvəzlənməsi, həmçinin qaz infrastrukturunun səmərəli fəaliyyət göstərməsi, qaz xətlərinin işlək vəziyyətdə saxlanılması istiqamətində məqsədyönlü işlər görülür.



"Əhalinin təbii qazla təminatı istiqamətində də tədbirlər həyata keçirilmişdir", – deyən icra başçısı əlavə etmişdir ki, bu sahədə görülən işlər nəticəsində 100 paqonometr uzunluğunda yeni yeraltı qaz xətti çəkilmiş, 176 paqonometr uzunluğunda yeraltı qaz xətti yenisi ilə əvəzlənmiş, istismar müddəti bitmiş qaz sayğaclarının yeniləri ilə əvəzlənməsi davam etdirilmişdir.

Qarşıda duran vəzifələrdən də bəhs edən Şükür Babayevin sözlərinə görə, payız-qış mövsümünə hazırlıqla əlaqədar aidiyyəti orqanlar üzərlərinə düşən vəzifələrin icrası istiqamətində fəaliyyətlərini daha da gücləndirməli, mövcud çatışmazlıqların vaxtında aradan qaldırılması üçün əməli tədbirlər həyata keçirməlidirlər. Bunun üçün lazımi mal-material ehtiyatı yaradılmalı, yerlərdə elektrik və qaz xətlərinin yararlı vəziyyətdə olub-olmamasına nəzarət gücləndirilməli, xətlərdəki nasazlıqların aradan qaldırılması istiqamətində tədbirlər mütəmadi olaraq davam etdirilməlidir.

Qeyd olunmuşdur ki, son illər rayonda aparılan tikinti-quruculuq tədbirləri nəticəsində əksər təhsil, səhiyyə və mədəniyyət müəssisələri müasir istilik sistemləri ilə təmin edilmişdir. Lakin bəzi təşkilatlarda maye qaz və neft məhsullarından istifadə olunur. Bu müəssisələrin qış mövsümündə normal fəaliyyətini təmin etmək məqsədilə qaz və neft məhsulları ehtiyatı yaradılmalı, yenidən qurulan təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin qazanxanalarına texniki baxış keçirilməli, daxili istilik sistemlərinin qış mövsümünə hazırlığı qısa müddətdə başa çatdırılmalı, istilik sistemləri işlək vəziyyətə gətirilməlidir.

İcra başçısı həmçinin qış aylarında ucqar kəndlərə fasiləsiz nəqliyyat xidmətinin təmin edilməsi, dəmiryol nəqliyyatında hərəkətin təhlükəsizliyi üçün zəruri tədbirlərin görülməsi, kommunal xidmətlərin yüksək səviyyədə aparılması, dayanıqlı rabitənin təmin olunması istiqamətində görüləcək tədbirlərdən də bəhs etmişdir.

Sonra Culfa Rayon Təhsil Şöbəsinin müdiri Adəm Qasımovun, Qaz İstismarı İdarəsinin rəisi Elxan Behbudovun və Elektrik Şəbəkəsinin rəisi Səid Həşimovun çıxışları olmuşdur.

Müşavirəyə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev yekun vurmuşdur.

*Şərur rayonunun kompleks quruculuq tədbirləri həyata keçirilən yaşayış məntəqələrindən biri də Püsyan kəndidir. Hazırda kənddə 4 bina inşa olunur.*

## Yeni quruculuq ünvanları

Quruculuq tədbirlərindən kənddə fəaliyyət göstərən tam orta məktəb binasına da pay düşüb. Belə ki, mövcud məktəb binası yenidən qurulur.

Qeyd edək ki, 330 şagirdin təhsil aldığı məktəbin yeni binasının layihəsində kəndin gələcək perspektivi nəzərə alınıb. Yeni bina 720 şagird yerlik nəzərdə tutulub. Qısa müddət ərzində köhnə məktəb binasında bəzi yardımçı tikililər sökülüb, əvvəlki binaya daha bir korpus əlavə edilib. Artıq binanın dam örtüyü vurulub, suvaq işləri başa çatdırılıb, pəncərələr salınıb, kommunikasiya xətlərinin çəkilişi yekunlaşdırılıb. Zirzəmi ilə birlikdə dörd mərtəbədən ibarət olan məktəb binasında 40 sinif otağı, kimya, biologiya, fizika laboratoriyaları, 3 elektron lövhəli sinif, 3 kompüter otağı, hərbi kabinə, idman zalı, direktor, psixoloq və müəllimlər otaqları, yeməkxana yerləşəcək. Tikinti işləri, demək olar ki, yekunlaşmaq üzrədir.

İkimərtəbəli həkim ambulatoriyasının tikintisində də keyfiyyət amilinə xüsusi diqqət yetirilir. Ambulatoriyada uşaq həkimi, ginekoloq, stomatoloq, baş həkim fəaliyyət göstərəcək, aptek, palata, doğuş, peyvənd, manupulyasiya, qeydiyyat və müayinə otaqları yerləşəcək. Bütün bunlar kənddə əhaliyə nümunəvi səhiyyə xidməti göstərməyə imkan verəcək.

Digər bir obyekt kənddə fəaliyyət göstərən qurumların birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. İnşaatçılar iki mərtəbədən ibarət olan kənd mərkəzində son tamamlama işləri görürlər. Binanın birinci mərtəbəsi poçt, ATS, qazanxana, baytarlıq məntəqəsi, kitabxana, arxiv və səhə müvəkkili üçün nəzərdə tutulub. İkinci mərtəbə isə kənd icra nümayəndəliyi və bələdiyyə üçün ayrılıb. Həmçinin Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub işçiləri üçün ayrılan otaq və iclas zalı da ikinci mərtəbədə yerləşəcək.

Püsyanda geniş vüsət alan çoxşaxəli abadlıq-quruculuq işləri bununla bitmir. Birmərtəbəli xidmət mərkəzində isə ticarət və xidmət obyektləri fəaliyyət göstərəcək.

Qeyd edilən hər 4 obyektin tikintisi "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən həyata keçirilir. İnşaat işləri yekunlaşdıqdan sonra obyektlərin yerləşdikləri ərazidə abadlıq tədbirləri görüləcək, ağac və gül kolları əkiləcək.

**Xəbərlər şöbəsi**

***Bu gün iqtisadi cəhətdən sürətlə inkişaf edən, beynəlxalq aləmdəki nüfuzu gündən-günə daha da artan, həyata keçirdiyi regional və qlobal layihələrlə dünyanın diqqətini özünə cəlb edən qüdrətli Azərbaycan Respublikası mütəşəkkil, nizami və peşəkar silahlı qüvvələrə malikdir. Ən müasir texnika və silahlarla tam təchiz olunmuş Silahlı Qüvvələrimiz qarşıda duran bütün vəzifələri layiqincə yerinə yetirməyə qadir orduya çevrilib.***

# Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqaz regionunun ən mütəşəkkil, çevik və qüdrətli hərbi gücünə çevrilib

## *Ordumuz qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirməyə hazırdır*





Tarixən güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edib. Ona görə də Azərbaycan Silahlı Qüvvələrinə göstərilən diqqət və qayğı həm də dövlətə, dövlətçiliyimizə, gələcəyimizə olan münasibətin nümunəvi göstəricisi hesab edilir. Ulu öndər Heydər Əliyevin daxili və xarici siyasətini böyük müvəffəqiyyətlə davam etdirən, onun arzularını, ideyalarını reallaşdıran ölkə Prezidenti cənab İlham Əliyev ordu quruculuğuna, Milli Ordumuzun daha da qüdrətlənməsinə daim xüsusi diqqət yetirir. Bu günədək Milli Ordunun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində qətiyyətli addımlar atılıb, hərbçilərimizin peşəkarlığı, döyüş qabiliyyəti xeyli artırılıb.

Avqustun 6-da Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin Ağdam və Bərdə rayonlarına səfəri zamanı bunun bir daha şahidi olduq. Azərbaycan Prezidenti əvvəlcə Ağdamdakı "N" hərbi hissəyə gələrək təmas xəttində yerləşən bu hərbi hissədə əsgərlərin və zabitlərin xidməti üçün yaradılmış şəraitlə tanış oldu. Ali Baş Komandan cənab İlham Əliyev komanda müşahidə məntəqəsindən düşmənin mövqelərini izlədi. Dövlət başçısı hərbçilərlə görüşdü və döyüşdə fərqlənmiş hərbi qulluqçular qarşısında çıxış etdi.

Dövlətimizin başçısı bildirdi ki, Müdafiə Nazirliyi vəziyyət barədə müntəzəm olaraq operativ məlumat verir. Silahlı Qüvvələrin Ali Baş Komandanı vəziyyətin tam nəzarət altında olduğunu diqqətə çatdırdı və dedi ki, bizim mövqelərimiz möhkəmdir, güclüdür və təmas xəttində Azərbaycan Ordusu tam üstünlüyü əldə edib.

Prezident İlham Əliyev Milli Ordunun peşəkarlığından, yüksək döyüş qabiliyyətinə malik olduğundan məmnun qaldığını bildirdi: ***"Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə layaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik".***

Dövlət başçısının Sərəncamı ilə 2005-ci il dekabrın 16-da yaradılan Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi müxtəlif hərbi təyinatlı məhsullar Milli Ordumuzun döyüş qabiliyyətini daha da gücləndirib. Qətiyyətlə deyə bilərik ki, bu gün ordumuzun təchizatı, əsasən, daxildə istehsal olunan məhsullar hesabına formalaşır. Artıq respublikamızda müxtəlif növ silah-sursat və hərbi texnika istehsal olunur. Onu da qeyd edək ki, Azərbaycanda istehsal olunan hərbi texnika daim beynəlxalq sərgilərdə nümayiş etdirilir və yüksək qiymətə layiq görülür.

Azərbaycan hərbi sənayesinin istehsalı olan döyüş texnikası və müasir silah-sursatın beynəlxalq sərgilərdə, o cümlədən keçirilən hərbi paradlarda, genişmiqyaslı hərbi təlimlərdə nümayişi dünyanın diqqətini ölkəmizə yönəldir. Bundan başqa, ordumuzun təmas xəttində təxribat törətmək istəyən düşmənə vurduğu sarsıdıcı zərbələr silahlı qüvvələrimizin gücündən, qüdrətindən xəbər verir.

Bu gün ölkəmizin istehsalı olan raket komplekslərini, xüsusi zirehli maşınları, "Cardom" tipli minaatanları görən hər bir azərbaycanlı sonsuz qürur hissi keçirir. Hərbi sənayemizin istehsalı olan silah və texnika bununla bitmir. Müxtəlifçaplı, müasirtipli yedəkli artilleriya sistemləri, avtomatik minaatanlar, tank əleyhinə toplar, haubitsalar, qoşqular, zireh sistemləri böyük maraqla qarşılanır. Bu hərbi texnikalar sırasında olan "Dolu-1" 20,4, "Leysan" 45, "Şimşək" 150, "Qasırğa" isə 70 və 90 kilometrlik məsafələrə reaktiv mərmi atmaqla hədəflərə dəqiq zərbə vurmaq imkanına malikdir.

Hərbi sənayemizin istehsalı olan yeni silah-sursatlarla yanaşı, ən geniş ərazidə mühüm obyektlərin kəşfiyyatını aparmağa imkan verən pilotsuz uçuş aparatları bu gün bütün dünyada böyük heyrət və maraqla qarşılanır. Həqiqətən də, qürur duymağa dəyər ki, Azərbaycan müstəqilliyinin 23-cü ildönümünədək özünün nəhəng hərbi sənayesini, hərbi potensialını formalaşdırmağı, gücləndirməyi bacarıb.

Cənubi Qafqaz regionunda özünün iqtisadi inkişafı, nüfuzu, geostrateji əhəmiyyəti və diplomatik çevikliyi ilə Azərbaycan bir daha sübut etdi ki, artıq o, dünya gücləri sırasına yüksəlməyə qadirdir.

Azərbaycan Silahlı Qüvvələri müasir zenit-raket komplekslərinə də malikdir. Ölkəmizdə yüksək dəqiqliklə aparılmış modernləşdirmə nəticəsində "Kaman" zenit-raket kompleksinin maksimal hədəfivurma qabiliyyəti 35 kilometrə çatdırılıb. Yüksək hündürlükdə uçan sürətli təyyarələri, qanadlı raketləri vurmaq üçün təyin edilmiş "Qalxan" zenit-raket kompleksinin hədəfiməhvetmə imkanları üfüqi və şaquli məsafələrə müvafiq olaraq 255 və 40 kilometrə çatdırılıb.

"Favorit" zenit-raket sistemi isə eyni anda saniyədə 2800 metr sürətlə uçan 6 müxtəlif hədəfə qarşı atəş aça bilir və 27 min metrədək hündürlükdə hədəfləri məhv edir. Ölkəmizdə modernləşdirilmiş "ARI-1T" mobil avtonom zenit-raket kompleksi 12 kilometr məsafədə və 7 kilometr hündürlükdə hədəfi məhv etmək imkanına malikdir. Özüyeriyən "Nərgiz" topları xüsusi mərmilərdən istifadə edilməklə dərinlikdə olan hərbi təyinatlı strateji obyektlərə zərbələr endirməyə qadirdir. Azərbaycanda aparılan modernləşdirilmə nəticəsində "T-72" tankları – "Aslanlar" ən müasir tələblərə uyğunlaşdırılıb, atəşaçma və döyüşüidarəetmə sistemləri təkmilləşdiriləmək kompüterləşdirilib.

Hərbi ekspertlərin fikrincə, Azərbaycanın malik olduğu " 2C7 Pion", "2A36 Giatsin", "T-122 Sakarya", "Lynx LAR" və "Lynx Extra" kimi artilleriya sistemləri işğal altındakı torpaqlarımızda yuvalanan Ermənistan ordusunu hər an məhv etmək gücündədir.

İqtisadi tənəzzüllə üz-üzə qalan Ermənistanda sosial-iqtisadi vəziyyət hər gün daha da ağırlaşır. Bu səbəbdən sosial partlayış həddinə çatan bu ölkənin ordusunda da özbaşınalıq hökm sürür. Ermənistan silahlı qüvvələrində xidmət edən əsgərlərin zaman-zaman Azərbaycan tərəfinə keçməsi və öz orduları haqqında dedikləri fikirlər Ermənistanda vəziyyətin nə qədər acınacaqlı olduğunu və erməni əsgərlərinin bizim tərəfimizə keçmələrinin konkret səbəblərini bir daha üzə çıxarıb.

Bu gün Ermənistan nəinki öz ordusunu komplektləşdirmək, hətta təmas xəttinə belə, əsgər göndərməkdə kifayət qədər ciddi problemlərlə üzləşib. Ölkədə demoqrafik vəziyyət dözülməz həddə çatıb. İnsan resursları tükənmək üzrədir. Ermənistanın müvafiq yöndə üzləşdiyi problemi səfərbərliyə alınacaq şəxslərin yaş həddini artırmaqla aradan qaldırmaq cəhdləri, təbii ki, effektli nəticə verməyəcək. Ən azı ona görə ki, ölkə vətəndaşları yerlərdəki mövcud dözülməz vəziyyətə tab gətirməyərək məcburiyyət qarşısında qalıb xarici dövlətlərə üz tuturlar.

Azərbaycanda isə vəziyyət, bir qayda olaraq, yüksələn xətlə inkişaf edir. Əhalinin sayı gündən-günə artır. Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi yüksək səviyyədə təşkil olunub. Ümumiyyətlə, Azərbaycanın iqtisadi potensialı artdıqca strateji əhəmiyyətli sahələrə dövlətimiz tərəfindən göstərilən diqqət və qayğı da artır.







Dövlətimiz ordumuzun hərbi imkanlarını, potensialını gücləndirmək üçün nə lazımdırsa edir. Bizim hərbi xərclərimiz ildən-ilə artır. Müqayisə üçün deyək ki, 2003-cü ildə hərbi büdcəmiz 160 milyon dollar idisə, 2010-cu ildə bu rəqəm 2 milyard 150 milyon dollara, 2011-ci ildə 3 milyard 413 milyon dollara, 2012-ci ildə 3 milyard 474 milyon dollara, 2013-cü ildə isə 3,7 milyard dollara çatıb.

Müqayisə üçün deyək ki, təcavüzkar Ermənistanın 2013-cü il üçün hərbi xərcləri, təxminən, 451 milyon ABŞ dolları həcmində nəzərdə tutulub. Onu da deyək ki, ölkənin ümumi büdcəsi, təxminən, 2,8 milyard dollara bərabərdir. Yəni Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumi büdcəsindən 50 faiz çoxdur.

Ölkəmizin müdafiə və təhlükəsizlik sahələrinə ayrılan xərcləri artırması təbiidir. Çünki artıq 20 ildir ki, Azərbaycanın 20 faiz torpağı işğal altındadır. Beynəlxalq səylərə baxmayaraq, Ermənistan Silahlı Qüvvələri işğal etdikləri əraziləri azad etməyib.

Bu gün Ermənistan elə bir vəziyyətə düşüb ki, hərbçilərinin maaşlarını vaxtlı-vaxtında verməyə büdcəsində maliyyə vəsaiti tapa bilmir. Azərbaycanda isə hərbçilərin sosial müdafiəsinin gücləndirilməsi üçün, demək olar ki, hər il konkret addımlar atılır. Maaşlar artırılır, zabitlərimiz üçün yeni-yeni evlər inşa edilir.

Azərbaycan Silahlı Qüvvələrinin yüksək döyüş hazırlığına yiyələnməsində rol oynayan əsas amillərdən biri də şəxsi heyətin mənəvi-psixoloji hazırlığıdır. Son illər müvafiq sahədə də ciddi irəliləyişlər əldə olunmuşdur. Hərbi qulluqçularımızın döyüş tapşırığını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq nümunələri buna ən yaxşı sübutdur. Ölkə ictimaiyyəti Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun, Fərid Əhmədovun, Əhməd Abdullayevin simasında bir daha bunun şahidi oldu. Bu gün ordumuzun sıralarında Mübariz İbrahimov kimi yüksək döyüş hazırlığına yiyələnmiş, Vətəninə və xalqına bağlı minlərlə hərbi qulluqçu xidmət edir. Son günlər təmas xəttində baş verən hadisələr fonunda biz bunu bariz şəkildə gördük.

Azərbaycan Ordusunda xidmət edənlərin böyük hissəsi gənclərdir. Gənclərin milli ruhda, hərbi-vətənpərvərlik ruhunda yetişmələri üçün ölkəmizdə hər cür şərait yaradılıb. Gənclik böyük qüvvədir. Bu qüvvənin düzgün istiqamətləndirilməsi dövlətçiliyimizin, müstəqilliyimizin qorunması, daha da möhkəmləndirilməsi deməkdir. Dövlətimizin gənclərlə bağlı həyata keçirdiyi tədbirlər, bu istiqamətdə qəbul olunan qərarlar öz bəhrəsini verir. Bu gün ərazi bütövlüyümüzü təmin etməyə qadir, sərhədlərimizi qoruyan, düşmənə layiqli cavab verə biləcək vətənpərvər gənclərimiz, yəni qüdrətli Azərbaycan Ordusu var.

*Yazını Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin böyük reallığı əks etdirən sözləri ilə bitirmək istəyirəm:* ***"Bu gün Azərbaycanda nizami ordu vardır. Mən hərbi hissələrə tez-tez gedir, vəziyyətlə tanış oluram. Tam məsuliyyətlə deyə bilərəm ki, bu gün Azərbaycan Ordusu çox yüksək səviyyədədir. Ordumuzda peşəkarlıq, döyüş qabiliyyəti artır, Silahlı Qüvvələrdə ruh yüksəkliyi vardır. Bütün bu məsələlər bizi çox sevindirir. Azərbaycanda ordu quruculuğu prosesi bundan sonra da uğurla gedəcəkdir. Ordumuz ölkə qarşısında duran vəzifələri icra etmək üçün bütün imkanlara malikdir".***

**Rauf ƏLİYEV**

# Vergilər vaxtında ödənilir

***Naxçıvan Şəhər Vergilər İdarəsindən qəzetimizə verilən məlumata görə, Naxçıvan şəhərində vergi ödəyicilərinin məlumatlandırılması və vergilərin vaxtında ödənilməsi məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Cari ilin ilk 7 ayı ərzində sahibkarlıq fəaliyyəti ilə məşğul olan 17 hüquqi və 178 fiziki şəxs olmaqla, ümumilikdə, 195 vergi ödəyicisi qeydiyyata alınıb.***

Məlumatda bildirilir ki, ayrı-ayrı sahibkarların müraciətləri qanunamüvafiq qaydada cavablandırılıb, bəyannamələrin düzgün tərtib edilməsinə köməklik edilib, elektron bəyannamə xidməti göstərilib. Həmçinin vergi ödəyicilərinin vergi orqanlarına gəlmədən internet vasitəsilə bəyannamələrinin təqdim olunması, özlərinin şəxsi vərəqələrinə nəzarət etmək, elektron əməliyyatlar aparmaq imkanının yaradılması məqsədilə bu il avqustun 1-dək sahibkarlıq fəaliyyəti ilə məşğul olan 227 vergi ödəyicisi ilə "Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsi haqqında" müqavilə bağlanaraq onlara şifrələr verilib. Şifrə verilmiş vergi ödəyicilərinin hamısının bəyannamələri elektron poçt vasitəsilə Naxçıvan Şəhər Vergilər İdarəsinə təqdim edilib. Cari ilin ilk 7 ayında 496 hüquqi və fiziki şəxsə bank hesabı açılıb ki, bu da ödəmələrin köçürmə yolu ilə aparılmasına əlverişli şərait yaradıb.

Vergi ödəyicilərinin məlumatlandırılması ilə yanaşı, nəzarət işinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada aparılması, proqnoz tapşırıqların bütün növ tədiyyələr üzrə yerinə yetirilməsi, qalıqlara yol verilməməsi, hesablanmış vəsaitin büdcəyə ödənilməsi, vergi orqanlarında qeydiyyatda durmadan fəaliyyət göstərilməsi, işəgötürən və işçilər arasında əmək müqavilələrinin bağlanmaması və vergidənyayınma hallarının qarşısının alınması məsələləri də diqqət mərkəzində saxlanılıb. Belə ki, 1 avqust 2014-cü il tarixədək Naxçıvan şəhəri ərazisində fiziki və hüquqi şəxslərin fəaliyyət göstərdiyi 32 obyektdə nəzarət-kassa aparatı quraşdırılıb. Bəhs olunan dövrdə idarəyə təqdim olunmuş bəyannamələrin kameral yoxlanılmasına diqqət daha da artırılıb. Eyni zamanda xüsusi razılıq (lisenziya) olmadan 3, xarici valyutanı ödəniş vasitəsi kimi qəbul edən 5, əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət etməyən 1 vergi ödəyicisinə maliyyə sanksiyası və inzibati cərimə tətbiq edilib, həmin vəsaitin tamamilə büdcəyə ödənilməsi təmin olunub. Həmçinin işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi qaydalarına riayət olunması ilə əlaqədar reydlər davam etdirilib, ümumilikdə, 1 avqust 2014-cü il tarixədək 226 nəfərlə əmək müqaviləsinin bağlanmasına köməklik göstərilib. Bağlanmış əmək müqavilələrində işçilərə ödənilən aylıq əməkhaqqının məbləği 180 manatdan az olmayıb.

Qeyd edək ki, görülən tədbirlər nəticəsində 2014-cü ilin 7 ayı ərzində bank orqanları tərəfindən Naxçıvan şəhərinin ticarət, iaşə, xidmət və dövlət rüsumu alan idarə, müəssisə və təşkilatlarında quraşdırılmış 284 ədəd POS-terminalın vergi orqanında qeydiyyatdan keçirilməsi və bu istiqamətdə işlərin davam etdirilməsi də verilən məlumatda öz əksini tapıb.

Məlumatda o da bildirilib ki, bu ilin ilk 7 ayı ərzində vergilər və digər icbari ödənişlər üzrə proqnoz tapşırıqda nəzərdə tutulmuş 6 milyon 611 min 100 manata qarşı 7 milyon 115 min 300 manat vəsait toplanılıb büdcəyə ödənilib ki, bu da 7 aylıq tapşırığın 107,6 faiz yerinə yetirilməsi deməkdir.

**Kərəm HƏSƏNOV**

***Turizm deyəndə sülh və tərəqqi içində yaşayan insanların bir-birlərinin tarixi keçmişinə, mədəniyyətinə, təbiət möcüzələrinə, saf ekoloji şəraitinə, iqtisadi inkişaf səviyyəsinə və milli qonaqpərvərliyinə görə yaranan maraq və motivlər naminə yüz kilometrlərlə uzaq məsafələrə etdikləri səyahətlər başa düşülür. Əgər həyat üçün zəruri olan nemətlər artıq təmin olunubsa və asudə vaxt da kifayət qədərdirsə, onda səyahət etməyə, turizm səfərlərinə fürsət tapmaq olar. İlin bu məqamında muxtar respublikamızın dilbər guşələrindən biri olan, adı dillər əzbəri Batabata doğru səyahətin tam vaxtıdır desək, yanılmarıq. Necə ki uzaqlardan Naxçıvanın sorağı ilə gəlmiş qonağımıza israr etdiyimiz kimi: “Naxçıvana gələsən, Batabatı görməyəsən, günahdır!”***

## Yurdumuzu tanıyaq və tanıdaq

# Naxçıvan-Şahbuz-Batabat turizm marşrutu



Bu marşrut boyu yola çıxarkən adama elə gəlir ki, Batabat kimi hamının yaxşı tanıdığı bir məkan haqqında oxuculara deməyə yeni bir söz tapmaq çox çətin olar. Söz yox ki, öz şöhrəti ilə muxtar respublikamızda və ölkəmizin hüdudlarından kənarda yaxşı tanınan bənzərsiz təbiət gözəli Batabatı təsvir edərkən təkrarçılıq günah olar. Amma yaxşı ki, təbiət kimi insan da bənzərsiz yaradılmış, ona həmişə yaşadığı yerdə olduğu kimi, kənarda da gözəllik və qeyri-adilik axtarmaq həvəsi verilmişdir. Yəni çox deyil, doğma diyarımızın hər qarışının özünəməxsus gözəlliklərini təkcə bir qonaq, bir tələbkar turist gözü ilə görməyi bacarsaq, onda Şahbuzun, Ordubadın hər qayasına, hər daşına bir nəğmə, hər bulağına şeir qoşmaq istəyəcəyik. Hər dəfə yolumuz Batabata düşəndə Biçənəyin yamyaşıl sinəsində bir-biri ilə sanki pıçıldaşan ağacların sehrinə dalıb onların xalı gözəlliyini azmı seyr etmişik? Nə qədər desən! Hamı rəssam olmasa da, rəssam olmağı arzu edən ürək var insanda. Məhz onun sevgisidir ki, bizi evin içində nə qədər komfort və texnologiya rahatlığı olsa da, bir bazar günü səhər yeddinin yarısından uşaqları da yuxudan oyadıb Şahbuz dağlarına, Batabatın ağ dumandan üzünə örpək çəkmiş yamaclarına doğru tələsdirir. Bu, bizim ana təbiət, yurd sevgimiz kimi, doğma Naxçıvanın ecazkar gözəlliklərini doyunca seyr etmək, havasından doyunca ciyərlərimizə çəkib bulaqlarından “oxay!” deyincə su içib yaxşıca istirahət etmək tələbatımızdır həm də. Odur ki, gələn bu il istirahətini Aralıq dənizi sahillərində keçirən dostlarımızın təəssüratlarını yarıyolda qoymaq üçün həvəskar fotoaparatı da evdə unutmadan Naxçıvan-Şahbuz-Batabat turizm marşrutu üzrə macəra dolu səyahətə başlayaq.

Əvvəllər kəndimizdən Naxçıvana gələndə, yaxud əksinə, Şahbuz istiqamətinə qayıdanda yolu qısa etmək üçün sürücünün zövqünə görə səsləndirdiyi bəzi musiqi parçaları, ya da ki, radio verilişləri lap yerinə düşərdi. Yol adamın canını sıxanda onun tez bitməsi üçün söhbətcil yol yoldaşınız yoxdursa, bu, belə də olmalı idi. Amma indi Şahbuz istiqamətinə bircə dəfə yolu düşən səyyah azacıq belə diqqət etsə, bu dəfə yol boyu başqa bir nəğmənin nəqarətinə qulaq kəsiləcək. Bu, Ordubadın qarlı zirvələrindən Xalxalın gündən yanmış yamaclarına qədər sıra ilə düzülmüş Naxçıvan dağlarının nəğməsidir. Bəli, bu ahəngə qulaq vermək, buradakı məntiqi duymaq dünyanın dərinliklərində möcüzə axtaran müasir turistlər üçün ən dərin təəssürat olacaqdır. Məncə, təkcə bunun özü turizmdən heç nə bilməyib, “biz Naxçıvanda turistlərə nə göstərə bilərik ki?” deyənlərə ən tutarlı cavabdır. Əgər tur bələdçisi təcrübəlidirsə, o, Cəhri kəndinə ayrılan yola çatana qədər qonaqları hökmən bu ecazkar gözəlliyin seyrinə dəvət etməyi bacaracaqdır. Şübhə yox ki, insanın köksünü qabardan sərkərdə dağların məğrurluğu, Uca Yaradanın əzəmət verdiyi zirvələr qədər həmin dağlara sanki təzim edərək vəfalı dostlar kimi o dağlarla bir sırada düşmən üstünə yeriyən qayaların səfi arif insanda heyrət doğurmaya bilməz. Çünki dünyanın çox təbiət möcüzələri olsa da, bu görüntülər təkcə Naxçıvana məxsusdur. Burada heç nə təsadüfi deyildir: zirvənin də, təpənin də öz yeri vardır.

Əgər Naxçıvandan Batabata yola çıxan turistləri bu minvalla deyil, adi Naxçıvan-Biçənək sərnişini kimi aparsaq, bu, bir saatdan da çox çəkməz. Amma müasir turizm marşrutları metodologiyası qarşısında belə bir vəzifə qoyulmuşdur ki, turmarşrutlar boyunca təşkil olunan səyahətlər zamanı turistlərə hər bir cazibə elementinin təqdim olunması üçün maksimum səy göstərilməlidir. Başqa sözlə, regiona gəlmiş qonaq 3-5 günlük qısa bir istirahət proqramı boyunca buradan maksimum təəssüratla geri qayıtmaq, dost-tanışlarına daha çox ecazkar mənzərələr, təbiət və insan əli möcüzələri haqqında danışmaq istəyir. Odur ki, turistləri ancaq yağlı kabablarla təəccübləndirmək istəyənlərin “tezislərinin” əksinə olaraq, Naxçıvan-Şahbuz-Batabat marşrutu üzrə hərəkət edən turistlərimizə bol təəssürat vəd edən reseptlər işləyib hazırlamaq daha məqsədəuyğundur.

Batabat yaylağı Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində yerləşir. Bu yerlər Şahbuzun təbiətinə, onun bənzərsiz landşaftına xas olun unikal təbiət abidələri ilə zəngindir. Odur ki, Heydər Əliyev Su Anbarının mənzərəsini doyunca seyr edən turistlər Şahbuza ayaq basar-basmaz bir-birindən ecazkar görüntülərin təsiri altına düşürlər: alınmaz qala bürcləri kimi yalçın qayalar, itiaxan dağ çayları, yol üstündə qaynayan buz bulaqlar, hardasa qaqqıldaşıb öz nəğmələrini oxuyan kəkliklər və dağ küləklərinin bir düz, bir tərs sığal çəkib daradığı süsənlərə dolu Plovtəpə. Biçənək meşəsinə yaxınlaşdıqca oksigen dolu təmiz havanın sərinliyi şəhərin 40 dərəcə istisindən yenicə qurtulmuş adamı məst etsə də, qarşıya çıxan yamyaşıl xalının sehrli naxışları bu gözəlliyə biganə qalmayan hər kəsi dördgöz edir.

Batabat füsunkar bir təbiət abidəsidir. Qədim Naxçıvan torpağı öz təbiət abidələri ilə çox məşhurdur. Amma Batabat özünün qalın meşəsi, buranın bitki və canlılarla zəngin biomüxtəlifliyi, bir-biri ilə növbələşən landşaft mənzərələri, saniyələr sonra adamın əllərini donduran Zorbulağı, dünyada bənzəri olmayan üzən adası, Naxçıvanın qədim mədəniyyətlərin kəsişmə nöqtəsi olduğunu sübut edən və dünyanın ən qədim mehmanxanasıolma dəyərinə malik Fərhad evi ilə bambaşqa bir kimliyə sahibdir. Onun bu məxsusiyyətlərinin, burada insana şəfaverici xüsusiyyətlərə malik olan otların, çiçəklərin, ağac və kolların hər birinin turistlər üçün ayrıca bir dəyəri vardır. Burada kamil turizm mütəxəssisi onlarla məzmunda ekskursiyalar, yürüş və əyləncə xarakterli tədbirlər keçirməklə turistlərin asudə vaxtlarını mənalı təşkil edə bilər. Batabat ekoloqların, təbiət dostlarının, velosiped həvəskarlarının, məktəblilərin, fotoovçuların, herbari həvəskarlarının və ya sadəcə, turistlərin sevimli məkanı kimi təqdim oluna bilər. Düzdür, indi yalnız yarımgünlük “yeyib-içmə” məqsədilə səfər edənlərlə yanaşı, Batabata əsl ekoturizm məqsədilə səfər edənlər də az deyil. Bu ərazinin təbii quruluşu və yaradılmış müasir yol infrastrukturu Batabatda ciddi elmi araşdırmalara da şərait yaradır. Odur ki, Batabat həvəskar turistlərlə bərabər, artıq dünyanın dörd bir yanından gələcək peşəkar turistləri də gözləyir. Batabat Astrofizika Rəsədxanasının burada yerləşməsi təsadüfi deyildir. Buranın coğrafi mövqeyi və havanın son dərəcə təmizliyi günün istənilən saatında aparılan araşdırmalar üçün çox əlverişlidir. Elə isə bu imkan var ikən nəyə görə burada maraqlı turistlər üçün səma cisimlərinin müşahidəsi turları təşkil olunmasın? Dünyada belə xidmətlər təklif edən yerlər az deyil. Batabat kamp turizmi üçün də ideal şərtlərə malikdir. Təkcə xarici turistlər üçün deyil, həm də yerli turistlərimiz, naxçıvanlı gənclər, tələbə və yuxarı sinif şagirdləri üçün burada çadır-kamplar təşkil etmək mümkündür. Bu həm mənalı istirahət, həm də ekoloji tərbiyə baxımından çox səmərəli bir turizm növüdür. Həftəsonu Batabatda dincəlib istirahət edən, lakin qeyri-ekoloji davranışlarla xaotik görüntü yaradan bəzi insanların gözü qarşısında təşkilati qaydada, səliqə ilə yaradılmış və bütün zəruri şəraiti olan belə kamplar gələcəkdə bir nümunə kimi batabatsevənlərin yaddaşında qalacaqdır.

…Zəngin təəssüratla dolu günün sonunda, Günəş Dərələyəzin ən yüksək zirvəsi Kükü dağına sancılanda evə qayıtmaq vaxtı gəlib çatdı. Bələdçimiz Zorbulaqdan adama bir qab da su tədarük edən qrup üzvlərini üzü Salvartıya doğru əyilən cığırla lüks mikroavtobusa doğru tələsdirir. Çünki şəhərə doğru yola çıxmazdan öncə burada sonuncu bir xatirə fotoşəkli də çəkdiriləcək – bələdçinin peşəkar fotokamerası ilə. Qoy sonra turistlərimiz elektron ünvanlarına göndəriləcək bu şəklə baxıb şairin dillər əzbəri olan misralarını da xatırlasınlar:

*Vüqarlıdır zirvələrin, qaşların,*
*Üzə gülür qayaların, daşların.*
*Mən İslamam, öz səsimi quşların*
*Nəğməsinə qata-qata gəlmişəm,*
*Mərcan gözlü Batabata gəlmişəm.*

# Sığortalı yaşamaq müasir həyat tərzidir

***Cəmiyyət sürətlə inkişaf edir və bu inkişaf özü ilə bərabər yeni-yeni tələbatlar doğurur. Bu tələbatlar içərisində, şübhəsiz, hər gün hər yerdə rast gəlinə bilən qəfil hadisələrə əvvəlcədən hazırlıqlı olmaq, onların vurduğu maddi zərərlərə qarşı iqtisadi təhlükəsizliyimizi təmin etmək vacib amil kimi özünü göstərir. İnsanlara belə bir rahatlığı təmin edən zəmanət, yəni sığorta varsa, onda daha firavan həyat sürmək, qurub-yaratmaq üçün digər şərtlər də təmin olunur. Odur ki, sabah rast gələ biləcəyimiz qəfil riskli hadisələrə qarşı bu gündən sığortalanmaq həm özümüz, həm ailə üzvlərimiz, həm də bütün cəmiyyət üçün ən etibarlı seçimdir. Bu inam və etibar isə inkişafın doğurduğu müasir həyat tərzimizdir.***

Sığorta olunmaq müasir dövrdə mühüm tələbatlardan biridir və onun inkişaf səviyyəsi də cəmiyyətdə mövcud olan hüquqi, iqtisadi və təşkilati münasibətlərin təkmilləşməsi, onun həyata keçirilmə texnologiyası ilə paralel olaraq dəyişir. Bir neçə yüz il qabaq insanlar yalnız qəfil baş verən və ağac materiallardan inşa edilmiş minlərlə evi külə döndərən yanğın hadisələrindən sığorta olunurdularsa, hazırda sığorta olunmaqla baş verə biləcək çoxlu sayda qəfil hadisələrin vurduğu zərərlər nəticəsində dəymiş maddi itkilərin əvəzini təmin etmək mümkündür. İndi ölkəmizdə və dünyada tətbiq olunan icbari sığortalarla yanaşı, xeyli sayda könüllü sığorta xidmətləri də sığorta agentlikləri tərəfindən təklif olunur ki, bunlardan insanlar öz maraqları üçün istifadə edirlər. Sığorta xidmətlərinin belə geniş yayılması isə insanların riskli hadisələr zamanı dəyə biləcək maddi zərərlərdən tamamilə arxayın şəkildə öz həyatlarını davam etdirmələrinə imkan yaradır ki, bu da müasir həyat tərzimizin qaçılmaz elementlərindən biridir.

Qeyd edək ki, həyat tərzi anlayışı nisbidir və o, cəmiyyət inkişaf etdikcə insanların öz yaşayış səviyyələrini artırmaları üçün məqsədyönlü fəaliyyətinin nəticəsində formalaşır. Bu məqamda müasir insan həyatına çox güclü şəkildə daxil olmuş komfort anlayışını da hökmən qeyd etmək lazımdır. Çünki hazırda istər daşınmaz əmlak, istər avtomobil, istər ev əmlakı, istərsə də bahalı əşyalar baxımından tələbatlarımız yüksəldiyi kimi, onların riskli hadisələr nəticəsində itirilməsi təhlükəsinə də qarşı həssaslığımız artmışdır. Artıq heç kim əziyyətlə, zəhmət hesabına başa gəlmiş əmlakının qəfil hadisə nəticəsində itirilməsini ağılna belə gətirmək istəmir. Ona görə də həyatımızda, məişətdə, yolda, işdə, bir sözlə, hər yerdə qurmaq istədiyimiz komfortlu həyat şəraitini risklərə qarşı zəmanətli görmək tamamilə təbii tələbatımızdır. Bütün bunların zəmanət altına alınması və vaxtında sığortalanması isə insanlardan eyni dərəcədə diqqət və həssaslıq tələb edir.

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində informasiya almaq imkanlarımız xeyli genişlənmişdir. Artıq yaşadığımız şəhərdə olduğu kimi, planetin istənilən yerindən gələn informasiyanın bir saniyə ərzində bizə çatması mümkündür. Həmin informasiyalar arasında hər gün çoxlu sayda təbii fəlakətlər, texnogen qəzalar, insanların səhvi və ya səhlənkarlığı ucbatından baş verən arzuedilməz hadisələr haqqında xəbərlər vardır ki, bunların da nəticəsində insanlar həyat və sağlamlığını itirir, maddi zərərlərə məruz qalırlar. Ancaq maraq doğuran cəhət budur ki, hər gün bunları izləsək də və yaxud belə hadisələrə rast gəlsək də, hansısa bir arxayınçılıq hissi hələ də bəzi insanların düşüncələrində qalmaqdadır. Halbuki ehtimalı nə qədər az olsa da, qəfil hadisə hər yerdə hər an baş verə bilər. Yəni yaşadığımız evin yanğına, yaxud subasma ehtimalına qarşı riskləri olmasa da belə, hər an güclü bir zəlzələnin olmayacağına heç kim zəmanət verə bilməz. Yaxud avtomobil nə qədər etibarlı olsa da, onunla yolda gedərkən hansısa gözlənilməz hadisələrlə qarşılaşa biləcəyimizi kim əvvəlcədən deyə bilər ki? Ona görə də sığorta deyəndə qəfil hadisə baş verəndən sonra həmin hadisələrə görə sığorta agentliyi tərəfindən əvəzi ödənilən məbləğ başa düşülməlidir. Əlbəttə ki, əgər həmin qəfil hadisələrə görə vətəndaşın sığortası varsa.

Qeyd etmək lazımdır ki, müasir dövrümüzdə digər sahələr kimi, sığorta işinin texnologiyasında, onun həyatakeçirilmə mexanizmində, sığortaçı ilə sığortaolunan vətəndaşlar arasında hüquqi, təşkilati məsələlərin həllində də xeyli təkmilləşdirmələr aparılmışdır. Başqa sözlə, sığortanın tarixi bir neçə yüz illərə qədər gedib çıxsa da, dünyada, o cümlədən ölkəmizdə sığorta sahəsində cəmiyyətin inkişaf imperativlərinə uyğun olaraq, daim yeni qanun və qaydalar tətbiq olunur. Təkcə icbari sığortanın bir sıra növlərinə, məsələn, daşınmaz əmlakın, avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortasına nəzər salsaq, burada vətəndaşların rahatlığı naminə nə qədər üstünlüklərin olduğunu görərik. Belə ki, özünə avtomobil almış və hərəkət zamanı hər hansı qəfil hadisə nəticəsində üçüncü bir şəxsə vura biləcəyi maddi zərəri ağlına belə gətirməyən vətəndaşa bunu xatırladaraq sığortalamaq onu gələcəyinə ən böyük zəmanətdir. Bundan başqa, müasir texnoloji imkanlar da vətəndaşların sığorta tələbatlarını ödəmək üçün çox əlverişlidir. İndi həyata keçirilən mütərəqqi üsullarla çox az bir müddətdə vətəndaşların sığortalamaq istədikləri daşınmaz əmlak, ev əmlakı, avtomobil, eləcə də digər dəyərli və qanunla sığortalanması mümkün olan bütün obyektlərin sığorta sənədləri hazırlana bilir. Eyni ilə də baş vermiş sığorta hadisəsi zamanı sığortalı vətəndaşın müraciətindən dərhal sonra sığorta agentliyinin nümayəndələri hadisəni aktlaşdıran digər müvafiq dövlət qurumu nümayəndələri ilə birgə hadisə yerinə çatırlar. Bütün bunlar isə ölkəmizdə və muxtar respublikamızda həyatın bütün sahələrində davam edən inkişaf prosesləri fonunda mümkün olur. Çünki bu, bizim ümumi həyat tərzimiz, inkişafa aparan yolumuzdur.

**Səhifəni hazırladı: Əli CABBAROV**

*Gəncliyimiz, gələcəyimiz*

## Tələbəyik, biz zamanın tələbiyik...

***Hər il olduğu kimi, builki qəbul imtahanlarında da yüksək nəticə göstərən gənclərimiz çoxluq təşkil edir. Onlardan ikisini sizinlə tanış etmək istərdim: Bənövşə Qasımova 667 balla Naxçıvan Dövlət Universitetinə qəbul olunub; digəri – Nurlanə İbrahimli isə 657 bal toplayaraq Azərbaycan Tibb Universitetinin “müalicə işi” ixtisasının tələbəsi adını qazanıb.***

***Bənövşə QASIMOVA:*** – 1996-cı ildə Kəngərli rayonunun Qarabağlar kəndində anadan olmuşam. Bu il Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbi “Qızıl” medalla bitirmişəm. Qardaşımla uşaqlıqdan ən böyük arzumuz həkim olmaq olub. Arzumuza çatmaq üçün var gücümüzlə çalışdıq. Nəticədə, ikimiz də Naxçıvan Dövlət Universitetinin “müalicə işi” ixtisasına qəbul olunduq. Ailəmizin sevincinin həddi-hüdudu yoxdur. Onu da deməyi özümə borc bilirəm ki, məzunu olduğum tam orta məktəbdə yaradılan şərait uğur qazanmağımın başlıca səbəblərindən biridir. Ümumilikdə isə muxtar respublikamızda təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəblərimizin müasir informasiya texnologiyaları, dərslik və bədii ədəbiyyatlarla təmin edilməsi şagirdləri daha yaxşı oxumağa həvəsləndirir. İndi bir arzum da var: tələbəsi olduğum ali məktəbdə mükəmməl təhsil alıb, yaxşı həkim kimi ən şirin nemət olan cansağlığının keşikçisi olmaq, insanların xidmətində durmaq.



***Nurlanə İBRAHİMLİ:*** – 1996-cı ildə Culfa rayonunun Bənəniyar kəndində anadan olmuşam. Tam orta məktəbi yüksək qiymətlərlə bitirmişəm. Oxuduğum illərdə məktəbin ictimai işlərində yaxından iştirak etmişəm. Fənn olimpiadalarında bir çox uğurlar qazanmışam. Qardaşım Naxçıvan Müəllimlər İnstitutunun tələbəsidir. Mən də tələbə adını qazanıb ailəmə böyük sevinc yaşatmaq istəyirdim. Sevinirəm ki, bu arzuma çatdım. Artıq Azərbaycan Tibb Universitetinin tələbəsiyəm. Əvvəlcə onu deyim ki, əgər tələbə adını qazanmaq, gələcəkdə öz xalqına və dövlətinə layiq vətəndaş kimi yetişmək istəyirsənsə, təbii ki, çox oxuyub, çox öyrənməlisən. Uşaqlıqdan həkim olmaq ən böyük arzularımdan biri olub. Ona görə var gücümlə çalışmağa qərar verdim. Tələbə adını qazanmağımda məktəbimizdə yüksək tədris üçün yaradılan şərait əsas amildir. Onu da dərk edirəm ki, yaxşı həkim olmaq üçün çox çalışmalıyam. İnanıram ki, təhsilimi uğurla başa vuracaq, savadlı həkim kimi insanların sağlamlığının təmin olunmasına töhfə verməyə çalışacağam.



Bu yolda hər iki gəncə uğurlar arzulayırıq!

**Sara ƏZİMOVA**

* * *

Rahimə Əliyeva ali məktəblərə qəbul imtahanında 644 bal toplayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “beynəlxalq əlaqələr” ixtisasına qəbul olunub. Rahiməni yüksək balla tələbə adı qazanması münasibətilə təbrik etdik.



Onun dediklərindən:

– Bitirdiyim təhsil ocağındakı fənn kabinələri, işıqlı dərs otaqları, zəngin kitabxana hər bir şagirdin yüksək səviyyədə təhsil almasına geniş imkanlar açır. Belə yüksək şəraitdən müəllimlərimiz və şagirdlərimiz səmərəli istifadə edirlər. Biz şagird olduğumuz illər ərzində üzərimizdə hər zaman qayğı, oxumağımız, bilik sahibi olmağımız üçün diqqət hiss etmişik. Bunların müqabilində, belə yüksək diqqət və qayğının əvəzində çox çalışmalı, yaxşı oxumalı, ümidləri doğrultmalı olduğumuzu da vaxtında anlamışıq. Qarşıma məqsəd qoymuşdum: 600 balı keçməliydim. İmtahana girərkən həyəcanlı idim. Ancaq sual kitabçasındakı suallara ötəri nəzər yetirdikdən sonra həyəcanım keçdi. Çünki sualların hamısı mənə tanış idi. 600-dən yuxarı bal toplayacağıma isə elə imtahanda əmin olmuşdum. Siyasi elmlərə marağım çox olub. Ona görə də ixtisas seçimində “beynəlxalq əlaqələr” ixtisasını seçdim. Amma iş hələ bununla bitmir. Qarşıda bizi daha məsuliyyətli tələbəlik illəri gözləyir. Biz bundan sonra da daha yaxşı oxumalı, seçdiyimiz ixtisasa dərindən yiyələnməliyik.

Bu gün muxtar respublikamızda təhsilə göstərilən dövlət qayğısı, təhsil işçilərinin əməyinin ən ali mükafatlarla qiymətləndirilməsi, məktəblər üçün müasir standartlara uyğun binaların inşa olunması, məktəblərin lazımi dərs vəsaitləri, avadanlıqlar, fənn kabinələri ilə təchiz edilməsi uğurları artıran başlıca səbəblərdəndir. Rahimə Əliyeva da yaradılan bu cür şəraitdən bəhrələnərək öz arzusuna çatıb. Ali təhsil illərində gələcəyin politoloquna uğurlar arzulayırıq.

**Sona MİRZƏYEVA**

## “Oxu, qavra” adlı mütaliə yarışı keçirilib

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası istiqamətində növbəti tədbir təşkil olunub.*

Avqustun 20-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud 12 uşağın iştirakı ilə “Oxu, qavra” adlı mütaliə yarışı keçirilib.

Yarış iştirakçıları bir saat ərzində elektron kitabxananın kataloqunda olan bədii ədəbiyyatdan seçilmiş hekayəni oxumaqla onun məzmununa aid tərtib olunan test suallarını cavablandırıblar. Ən çox sualı düzgün cavablandıran iştirakçı yarışın qalibi olub.

Yarışda ilk üç yeri tutan sağlamlıq imkanları məhdud uşaqlara hədiyyələr, digər yarış iştirakçılarına isə həvəsləndirici mükafatlar təqdim edilib.

Qeyd edək ki, belə tədbirlər sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasına – mütaliə vərdişi yaratmaqla onların intellektual səviyyələrinin yüksəldilməsinə xidmət edir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Elm və texnologiyanın yüksək inkişaf etdiyi XXI əsrin yenilikləri bəşəriyyət üçün nə qədər vacibdirsə, müasir dünyanın qarşı-qarşıya qaldığı ekoloji problemlərin sürətli həlli də o qədər vacibdir. Buna görə də bu gün inkişaf etmiş ölkələrin əksəriyyətində diqqət mərkəzində saxlanılan əsas məsələlərdən biri ekoloji tarazlığın sabit saxlanılması və davamlılığına nail olunması, meyvə, giləmeyvə, bəzək bağçılığının yaradılması, meşə sahələrinin genişləndirilməsidir.***

*Mütəxəssis sözü*

## İsti yay günlərində yaşıllıqlara necə qulluq edilməlidir?

Bildiyimiz kimi, bəşər elmini düşündürən bir amil də tullantısı olmayan zavod yaratmaqdır. Məntiq etibarilə bu zavodu yaşıl yarpaqlı, geniş gövdəli, qollu-budaqlı ağaclara bənzətmək olar. Çünki istənilən yaşıl bitkinin son tullantısı kainata, bəşəriyyətə oksigen sintezidir. İqtisadi, mənəvi, ekoloji baxımdan bitkilərin, o cümlədən ağacların gündəlik həyatımızdakı rolu hər birimizə aydındır. Naxçıvan Muxtar Respublikasının kontinental iqlim şəraitində ağac əkmək, ona qulluq göstərmək və son nəticə olaraq ondan faydalanmaq çətin, məsuliyyətli və zəhmət tələb edən işdir. Təsəvvürümüzə gətirək ki, minbir əziyyətlə toxumacardan meyvə verən, kölgə salan, ekoloji baxımdan insanlara həmdəm olan ağaclara bizim nə qədər ehtiyacımız vardır. Buna görə də ağacların əkilməsində torpaq sahələrinin düzgün seçilməsi, müasir texnologiyaya cavab verəcək şəkildə becərmə işlərinin aparılması, bir sözlə, ağaclara və bitki aləminə qayğı göstərilməsi ən aktual məsələlərdən biridir.



Təbii ki, ağacların əkilməsində iki əsas amil mühüm rol oynayır. Bunlardan biri torpağın münbitliyidirsə, digəri suvarma sularından səmərəli istifadə olunmasıdır. Hamımıza məlumdur ki, istənilən növ əkinin aparılmasında əsas rol oynayan torpaqdır. Buna görə də ağac əkinindən əvvəl aqronomiya elminin də tələbləri əsasında torpaq sahələrinin seçilməsinə diqqət etmək lazımdır. İstər iqtisadi baxımdan fayda verəcək meyvə ağacları, istərsə də yaşıllıq, gözəllik baxımından olsun, istənilən ağac və ya gül kolu əkilərkən ərazinin yararlılığına, həmçinin ətrafdakı bitkilər aləminin növ tərkibinə diqqət etmək lazımdır. Məsələn, ərazidə cır meyvə ağacının bitməsi həmin yerdə bağ salmaq üçün əlverişli torpaq və münasib ekoloji şərait olduğunu göstərir. Ağac əkinində məhsuldar, qida maddələri ilə zəngin, rütubət tutumu yüksək olan, eyni zamanda hava və suyu normal keçirən torpaqlar daha münbit torpaqlar hesab olunur. Məlum həqiqətdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi və iştirakı, eyni zamanda tapşırıq və tövsiyələri əsasında muxtar respublikada ağac əkini geniş vüsət almış, ata-babalarımızın vurğuladığı kimi, ilanmələyən çöllər çox qısa bir müddətdə əsl gülzarlığa çevrilmişdir. Minbir zəhmət hesabına həyata keçirilən tədbirlərin nəticəsidir ki, hətta kənd təsərrüfatına az yararlı, qeyri-münbit torpaq sahələri belə, əkin dövriyyəsinə daxil edilərək ekoloji tarazlığın qorunub saxlanması təmin edilir.

Yaşıllıq sahələrinin yaradılmasında digər əsas iş əkinlərin suvarılmasıdır ki, bu da bitkilərin inkişafında mühüm rol oynayan amillərdən biridir. İnkarolunmaz həqiqətdir ki, əkilmiş bitkilərə yalnız yüksək səviyyədə qulluq göstərməklə müsbət nəticə əldə etmək olar. Burada əsas məqamlardan biri də odur ki, Naxçıvan Muxtar Respublikasının təbii şəraiti ölkəmizin digər regionlarından fərqlənir. Kəskin quru kontinental iqlimə malik regionumuzda qış fəsli çox sərt, yay fəsli isə yüksək temperatura malik istilərlə müşayiət olunur. Cari təsərrüfat ilinin başlanğıcından bu günədək yağıntının və atmosfer çöküntülərinin az olması isə, təbii ki, mövcud yaşıllıqlara öz təsirini göstərməkdədir. Yay aylarının olduqca isti keçməsi ərazilərimizdə bitki aləmi üçün, fauna, flora üçün əlverişsiz hava şəraitinin ən böyük amili hesab edilir. Aparılan müşahidələrin nəticələrinə istinad edərək vurğulamaq lazımdır ki, yaşıllıqlara aqrotexniki qulluq tədbirləri içərisində ən məsuliyyətli iş suvarma sularına olan təminatı yaratmaqdır. Suvarma ağacların normal böyüməsini və yüksək məhsul alınmasını təmin edən əsas aqrotexniki tədbirlərdən biridir. Suvarmanı tələbata uyğun aparmaq başlıca şərtlərdəndir. Buna görə də suvarmada diqqət edilməsi vacib olan bəzi məqamları oxucularımızla bölüşmək istəyirik.

Hər hansı torpaq tipi olur-olsun, ağaca verilən su torpağı 1-1,5 metr dərinlikdə islatmalıdır. Ağır gilli torpaqlarda suyun dərin qatlara hopması (sızması) çətin, yüngül qumluşlu torpaqlarda isə asandır. Buna görə də səmərəli suvarma aparılması üçün torpağın tərkibi haqqında məlumatlı olmaq ilk şərtdir. Yadda saxlamaq lazımdır ki, dayaz suvarma zamanı torpağın ancaq üst şum qatı islanır. Bu suvarma ağacların normal böyüməsini, güclü çətir əmələ gətirməsini təmin edə bilmir. Bunun nəticəsində ağacların üst budaqları qurumağa başlayır. Buna yol verməmək üçün yerli şəraitə uyğun və təcrübədən çıxarılmış suvarma üsullarına üstünlük vermək daha əhəmiyyətlidir. Hava şəraitinin əlverişsiz keçməsi, nisbi rütubət və yağıntının olmaması bitkilərdə dəyişkənlik hallarının üzə çıxmasına səbəb olur.

Təsəvvür edək ki, tələb olunan təlimatlara uyğun ağac əkmişik, bütün aqrotexniki qulluq qaydasında aparılır, ancaq ağacın yuxarı hissələrində budaqların quruması hallarına rast gəlinir və bu, getdikcə yayılır. Bu vaxt hansı tədbirlərin və bu tədbirlərin necə həyata keçirilməsi zəruridir?

Əvvəlcə qeyd edək ki, çətiri formalaşmamış, tam qol-budaq əmələ gətirməyən birillik və ya ikiillik tinglərin gövdə ətrafına hər bir ting üçün azı 5 kiloqram küləş, yaxud quru ot dağıdılaraq bir bel boyu bellənərək mulçalama aparmaq lazımdır. Artıq bir neçə ildir ki, muxtar respublikamızda əksər əkin sahələri damcı üsulu ilə suvarılır. Bu üsulla suvarılma bizim regionun iqliminə uyğun olub, ən əlverişli suvarma üsuludur: ağacın kökləri daim nəm torpaqda qalır və bu, bitkinin isti hava şəraitində dözümlülüyünü artırır. Ancaq nəzərə alaq ki, bəzən bütün ağacları damcı üsulu ilə suvarmaq imkanı olmur. Əgər ağacın dibində bu cür rütubət yaratmaq mümkün deyilsə, bitkinin kök boğazından torpağa dəyən hissəsinə qədər süni örtük yaradılması daha məqbul hesab olunur. Bu örtük polietilen plyonka və digər sintetik materiallardan ibarət ola bilər. Örtüklər yaradıldıqda suvarma zamanı su örtük altından bitkilərə verilir. Günəş istiliyindən buxarlanma zamanı buxar şeh damlasına çevrilərək yenidən torpağa düşür. Beləliklə, gövdə ətrafında rütubət balansı qismən də olsa, nizamlanır. Çoxumuz bilirik ki, hər suvarmadan sonra ağacın dibindəki torpaq qatında çatlar əmələ gəlir. Yaxşı olar ki, hər suvarmadan sonra ağacların gövdə ətrafı üzdən bellənilərək əmələ gələn çatlar və qaysaq təbəqəsi dağıdılsın. Tədbir başa çatdırılan andan torpağın üzərinə çürümüş üzvi gübrə və ya nazik təbəqə halında quru torpaqla qum qarışığı verilsin. Bəzən sahələrdə axar su ehtiyatı olmadığı üçün ağaclar su çəni olan maşınlarla suvarılır. Əgər gətirilən su kəhrizlər və ya bulaqlardan, subartezian quyularından sərin halda tədarük olunursa, ağaca verməzdən əvvəl ən az 2 saat Günəş altında saxlanılıb ılıq hala gətirilməlidir. Bundan əlavə, suvarma sularından görkəmini dəyişən ağaclarda xəstəlik və zərərvericilərə qarşı kimyəvi mübarizə aparılması yolverilməzdir. Ağacların isti yay günlərində budanılaraq onlara forma verilməsi, gövdə ətrafında əmələ gələn əlavə budaqcıqların qoparıb zədələmək qətiyyən olmaz.

*Sonda qeyd edək ki, hər hansı bir tədbiri həyata keçirərkən mütəxəssis məsləhətindən yararlanmaq faydalı olacaqdır.*

***Əsgər HƏSƏNOV***
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı***

***İtmişdir***

Naxçıvan şəhəri, “Çənlibel” məhəlləsi, bina 15, mənzil 28-də yaşamış Novruzov Nağdəli Abbas oğlunun adına olan evin 9833 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Mircəfər Mirişli küçəsi 18-də yaşamış Həsənov İmran Abbas oğlunun adına verilmiş 1981 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Özəl Universitetinin Ümumi tarix kafedrasının müdiri Elbrus İsayev və kafedranın əməkdaşları Hacı Qadir Qədirzadəyə, qardaşı **SİYASƏTİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ŞƏRQ qapısı
Baş redaktorun müavini: SƏYYAR MƏMMƏDOV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 712